Bəşir Həsənov,
Tovuz Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdir əvəzi

## Başından boş yer yoxdur

*Bir nəfər məclisə gecikir. Panamasını çıxarıb münasib bir yer axtarır. Dörd yanına boylanır, yer tapmayanda məcbur olub soruşur ki, bir boş yer yoxdurmu, bunu qoyum.*

*Bəşir müəllim məclisin başında əyləşib tamadalıq edirmiş və bu mənzərənin seyr etdiyindən dözməyib deyir:*

*-Ə, başından boş yer yoxdur, ora qoy!*

## Züyçülər qabaq gəlir

*Mədəniyyət evində keçiriləcək konsert gecikirmiş. Bəşir müəllim direktordan bunun səbəbini soruşur.*

*Direktor:*

*-Bəşir müəllim, züyçülər gəlib, ancaq əsas çalğıçılar gəlməyib.*

*Bəşir müəllim:*

*-Züyçülər həmişə hər yerə hamıdan qabaq gəlirlər.*

## Əli aşağıdır

*Nüfuzlu idarələrin birinin kiçik işçiləri sanitar-epidemioloji stansiyasının baş həkimi Bağırovun üstünü kəsdirib deyirlər ki, neçə vaxtdır görükmürsən bizə hörmət elə. Həkim də dad edir ki, imkanım yoxdur, əlim aşağıdı.*

*Bəşir müəllim fikir verir ki, həkim yalxa köynəkdədi. O, əli ilə köynəyin açıq yerini göstərib deyir:*

*-Əə, bu yazıqdan nə istəyirsiniz, imkanı olsa özünə alt köynəyi alar da.*

## Pojarnıya zəng elə

*Bəşir müəllim dostları ilə çayxanada çay içirmiş. Çayçı da bunlara gec qulluq edir, ancaq qonşu stola tez-tez çay aparırmış. Bəşir müəllim hövsələdən çıxıb çayçıya deyir:*

*-Səhərdən fikir verirəm, o stola nə tez-tez çay verirsən?*

*Çayçı dedi:*

*-Yazığın yanğısı var, ona görədi.*

*Bəşir müəllim deyir:*

*-Yanğısı var, pojarnıya zəng elə, gəlsin, söndürsün.*

## Uşağı sən saxla

*Bəşir müəllim işçiləri kabinetdə qəbul edirmiş, müavini tələsik içəri girib deyir ki, bir uşaqlı qadın var, uşağı narahatlıq edir, xahiş edirəm onu tez qəbul edin. Bəşir müəllim razılıq verəndən sonra, müavin qapıdan çıxa-çıxa soruşur ki, bəs uşağı neyləyim?*

*Bəşir müəllim deyir:*

*-Uşağı sən saxla, qoy anası gəlsin!*

## Dodaq tərpənməsi

*Azaflı Hüseyn Bəşir müəllimlə rastlaşanda salamını eşitmir. Ötüb keçəndən sonra geri qanrılıb deyir ki, niyə salamımı almadın?*

*Bəşir müəllim deyir:*

*-Ə, kar olduğunu bilirdim, korluğunu təzə bildim. Heç olmasa dodaqlarımın tərpənməyinə fikir verəydin də.*

## 40 aşığın rəhbəri

*Bir gün necə olursa rayonun rəhbər işçilərindən biri xüsusi tapşırıqla 2 nəfər aşığı Bakıdan çox mühüm bir tədbirə aparası olur. Bu el sənətkarları ilə cəmi bircə gün yol yoldaşlıq edən həmin adam qayıdandan sonra Başir müəllimə deyir ki, ay Bəşir müəllim, sən necə çətin insanlarla işləyirmişsən?*

*Bəşir müəllim deyir:*

*-A kişi, sən ki, rəhbər ola-ola ikicə aşıqla bircə gün yollaşa bilmədin, gör mən indi dağ imişəm ki, rayonun 40 aşığını (o vaxt Tovuzda 40 aşıq var idi) yola verə bilirəm.*

## Axıra saxlayır

*Yenə bir gün Bəşir müəllim bir məclisdə tamadalıq edirmiş. Necə olursa oradakıların birinin sağlığına badə qaldırmaq yaddan çıxır. İş-işdən keçəndən sonra Bəşir müəllim sağlığı deyilməyəni və özünü vəziyyətdən çıxarmaq üçün deyir:*

*-Heç kefini pozma, ay filankəs, konsertlərdə artistin yaxşısını həmişə axıra saxlayırlar. Mən də sağlığın ağırını indi axıra saxlamışam. Gəlin bunu içək məxsusi səni sağlığına.*

## Mən canımı qurtardım

*Səhlənkar işçisini işdən qovandan sonra Bəşir müəllim onun arvadı ilə qabaqlaşır. Bəşir müəllim görür ki, o, qaş-qabağını turşudub salam vermədən keçmək istəyir. Odur ki, deyir:*

*-Ay filankəs xanım, salam.*

*-Eh, ay Bəşir müəllim, nə salam, bir kişi nə idi ki, siz onu saxlaya bilmədiniz.*

*Bəşir müəllim deyir:*

*-Ay xanım, mən ondan canımı qurtardım, gör sən nə edirsən?*

## Sənin cibin doludur

*Bir payız vaxtı Bəşir müəllim plaşlı gəzirmiş. Bu zaman bir tanış sovxoz direktoru buğlana-buğlana maşından düşür. Bəşir müəllim görüşüb deyir:*

*-Ay Bəşir müəllim, hava çox elə soyuq deyil ki, sən belə qalın qeymisən? Olmaya üşüyürsən?*

*Bəşir müəllim deyir:*

*-Adam cibindən üşüyər. Sənin cibin doludur, ona görə də üşümürsən: bu soyuq sənə yaz havası kimi gəlir.*

## İki əlli ötürmə

*Bir gün Bəşir müəllim başında dostları ilə birlikdə Qara Həsəndə məclis qurubmuş. Qonaqlığı da özü verməli imiş. Görür yoldaşlarından biri qollarını çirməyib kababa elə girişib ki, gəl görəsən. Dözməyib deyir:*

*-Ə, hesab özünün olanda udquna-udquna yeyirsən, başqasınınkı olanda iki əlli ötürürsən, hə.*

***REDAKSİYADAN:** Bir qayda olaraq həmişə duzlu gülməcələri, bir-birindən gözəl şerləri ilə görüşünüzə gələn Mədəniyyət BƏŞİR bu dəfə də adətinə xilaf çıxmadı. Onun "yumor boxçasını" qəbul edin, bu bayram günündə gülün, şənlənin...*